*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 164-169*

https://doi.org/10.62837/2025.10.164

**Fil.f.d., dos.**
**Qətibə Balaəhməd QIZI Rüstəmova**
**ADU**
**r.qatiba@gmail.com**

# DİL TƏLİMİ MATERİALLARININ SEÇİLMƏSİNƏ MÜXTƏLİF YANAŞMALAR

**Açar sözlər:** dil materialları, empirik, linqvistik , praqmatik yanaşma, metod.
**Key words:** language materials, empirical, linguistic, pragmatic approach, method.
**Ключевые слова:** языковые материалы, эмпирический, лингвистический, прагматический подход, метод.

Müasir dövrdə əlavə dil öyrənmək mühüm tələbata çevrilmişdir. Əlavə dil təhsili insanlara peşəkar yüksəlişin qapılarını açır, həyatda onlara yeni imkanlar yaradır. Bilik dövrünü yaşayan dünyamızda ömür boyu öyrənmənin və inkişaf etmənin ən vacib açarı dildir. Oxuma, yazma, anlama, düşünmə, problem həll etmə kimi proseslər dil vasitəsilə həyata keçirilir. Ünsiyyət qurma, hiss və düşüncələri ifadə etmə, xarici dünya ilə bütünləşmə, mədəni əlaqə yaratma kimi mərhələlərdə dilin əhəmiyyətli yeri vardır. Lakin bununla belə, xarici dil fənninin öz çətinlikləri vardır, belə ki, başqa fənlərdən fərqli olaraq, xarici dil "sərhədsizliyi" ilə səciyyələnir, yəni onun həcmi sonsuzdur. Bu isə o deməkdir ki, dil öyrənən şəxs bütün qrammatikanı və həmin dildə leksikanın baza hissəsini – əsas lüğət fondunu bilməlidir. Məhz buna görə dil materiallarının düzgün seçilməsi çox vacib və əhəmiyyətli məsələdir. Dil öyrənmək üçün materialların ehtiyatla və diqqətlə seçilməsi olduqca vacibdir. Beləliklə, dil öyrənmək üçün ilk növbədə uyğun material seçmək bu işin uğurunun önəmli hissəsini təşkil edir.

Dil – şəxsin bacarıqlarını tam inkişaf etdirmə, problemləri həll etmə, elmi düşünmə, müxtəlif dəyərlərə sahib olma, daha geniş bir dünyagörüşünə sahib olmaq kimi xüsusiyyətlərə təsir edir. Bu vəziyyət dil bacarıqlarının məktəbdəki təhsillə kifayətlənməyərək ömür boyu inkişaf etdirilməsinin vacibliyini aktuallaşdırır.Bu səbəbdən bir çox ölkələrərdə dil bacarıqlarını inkişaf etdirilməsinə böyük əhəmiyyət verilir, davamlı şəkildə yeni yanaşma və üsullar tətbiq edilir.

Ana dili və ikinci dil təlimində istifadə edilən bəzi yanaşma və üsullar aşağıda verilmişdir. Bunlar dil təliminə məxsus xüsusi yanaşma və üsullardır.

Materialın yazılması və seçilməsi prosesində müəllimlər öyrəncilərin maraq və ehtiyaclarını dərk edən ən yaxşı rəyçilərdir.B.Tomlinson da bu qənaətə gələrək bildirmişdir ki, müəllimlər öyrəncilərini ən yaxşı tanıyan və material hazırlamaq üçün ən münasib şəxslərdir (7,s.129). Təəssüf ki, məktəblərin əksəriyyətində

müəllimlər verilən dərsliklə kifayətlənirlər. Onlar materialların adaptasiyası (uyğunlaşdırılması) və dəyişdirilməsi üçün çox cüzi dərəcədə səy göstərirlər, işlərini ciddi şəkildə sillabusa uyğun qururlar, amma bu zaman təlim və öyrənmə prosesi monoton və yorucu xarakter daşıyır. Nəticədə, həm müəllimin, həm də tələbənin motivasiya dərəcəsi düşür. Bu problemin yeganə həll yolu müxtəlif səviyyələrdə olan öyrəncilərin linqvistik, psixoloji və intellektual qabiliyyətlərinə uyğun materiallar hazırlamaqdır, məktəblər isə müəllimlərin professional dərəcədə inkişafı üçün sərmayə qoymalıdır.

Məlumdur ki, hər hansı bir metod təlimin məqsəd və məzmunu əsasında hazırlanır və dillərin tədrisi metodu həmişə dil materialına əsaslanır.Ömür boyu öyrənmənin və inkişaf etmənin ən vacib açarı dildir. Oxuma, yazma, anlama, düşünmə kimi proseslər dil vasitəsilə həyata keçirilir. Buna görə də bir çox ölkələrərdə dil bacarıqlarını inkişaf etdirilməsinə böyük əhəmiyyət verilir, davamlı şəkildə yeni yanaşma və üsullar tətbiq edilir.

Dil materialı təlimin məzmununun ilk komponentinin əsasını təşkil edir. Materialın düzgün seçilməsinin mühüm əhəmiyyəti vardır.Belə ki, düzgün seçilmiş materiallar tələbələrdə motivasiyanın yaradılması tədris proqramının hədəflərinə və təhsilin keyfiyyətinə birbaşa təsir göstərən əsas amildir. Başqa sözlə desək, dilin tədrisi üçün düzgün seçilmiş material uğurun əsasını təşkil edən amillərdəndir.

Materiallar tələbələrə təqdim edilməmişdən əvvəl ilkin mərhələdə ciddi təhlil olunmalı və yoxlanılmalıdır. Məhz bundan sonra onlar istifadə üçün istifadə edilə bilər. Materialların nə dərəcədə səmərəli və davamlı olması müəllim və tələbələrdən gələn rəylər sayəsində mümkün olur. Eyni zamanda, materiallar sinfə və ya auditoriyaya gətirilməzdən əvvəl qiymətləndirilmə mərhələlərindən (istifadədən əvvəl, istifadə zamanı, istifadədən sonra) keçməlidir.

Ana dilinin xarici dil kimi tədrisi praktikasında təlim materialının seçilməsi və təşkili problemi aktual olaraq qalır. Məlumdur ki, qrammatika bütün bilik səviyyələrində – ibtidai, orta, qabaqcıl səviyyədə xarici dil tədrisinin müstəqil aspektidir. Bu baxımdan, Azərbaycan dilinin xarici dil kimi tədrisi dərslərində yalnız öyrənilən dilin qrammatik sistemi haqqında biliklər əldə edilmir, həm də yeni bir dil mühitində nitq ünsiyyəti yaratmaq üçün müvafiq səriştələr öyrənilir.

Tədris prosesində xarici tələbəyə qrammatikanın bütün şöbələrinə (fonetika, leksika, qrammatika) aid elə dil materiallar çatdırılmalıdır ki, tələbə bu materiallardan istifadə edərək həmin dili asan və rahat öyrənə bilsin. Beləliklə, qrammatika təkcə Azərbaycan dilinin ana dili kimi deyil, həm də xarici dil kimi tədrisində kommunikativ və nitq səriştələrinin formalaşması və inkişafı prosesində iştirak edir.

Bu öyrənmə məqsədlərini təmin edən dil materialının seçilməsi mürəkkəb bir problemdir. Bu problem müxtəlif yollarla həll edilmiş və indi də həll edilməkdədir. Belə ki, V. L. Skalkin dil materialının seçilməsinə yeddi yanaşma (burada:

yanaşma – tədqiqat problemlərinin həllinin əsas yolları. Yanaşmalar strategiyanı müəyyənləşdirir) üsulu qeyd edir ki, bunlardan bəziləri aşağıdakılardır:
- öz şəxsi təcrübəsini (seçim zamanı intuisiyasını) nəzərə alaraq;
- hər hansı bir mövzunun hüdudları daxilində seçilmiş mətnlərin dil məzmunundan asılı olaraq;
-işləklik tezliyi yüksək olan leksik vahidlərin və qrammatik hadisələrin seçilməsi;
- ana dilində danışanların sorğusu əsasında və s. (3, s.25)

Hazırda dil materialının seçilməsinə bu və ya digər yanaşmada istifadə olunan çoxlu sayda meyar və ya prinsiplər mövcuddur. Bu yanaşmalar və meyarlar haqqında aydın təsəvvürə malik olmaq faydalıdır. Əsasən, üç yanaşma daha çox diqqət çəkir: empirik, linqvistik və praqmatik.

Bunlardan birincisi empirik yanaşmadır. Empirik və ya hissiyata əsaslanan metod ətraf aləmin təcrübə yolu ilə dərk edilməsidir.

Empirik bilik təcrübə və ya müşahidə etməklə hisslər və şəxsi təcrübə əsasında formalaşır.Empirik biliklərin xüsusiyyətləri bunlardır:
- təcrübə yolu ilə əldə edilir;
-hisslər (görmə, eşitmə, dad,toxunma, qoxubilmə) sayəsində əldə edilə bilir. Məsələn, rəng korluğu olan bir insan əlvan rənglər haqqında empirik biliyə sahib ola bilməz;
- empirik bilik subyektiv xarakter daşıyır, çünki insan onu yalnız öz hissləri sayəsində əldə edir;
-hər bir insan empirik bilikləri özünəməxsus şəkildə mənimsədiyi üçün onlar səhv də ola bilər.

Beləliklə, empirik bilik elmi bilikdən fərqli olaraq, şəxsi təcrübə və hisslərə əsaslandığı üçün qeyri-elmi hesab edilir.

Empirik yanaşma təlim mətnlərinin dil məzmunu üçün seçim meyarını da əhatə edir. Bu zaman əvvəlcə hər dərs üçün mətnlər seçilir, öyrənilməsi nəzərdə tutulan dil materialına daxil olan yeni sözlər və qrammatik formalar vurğulanır.

Mətnlər üzrə leksik və qrammatik materialın seçilməsinin müsbət və mənfi tərəfləri var. Mətnlər, bir qayda olaraq, artıq inkişaf etmiş bir mərhələdə və proqramın müəyyənləşdirdiyi mövzudan asılı olaraq seçilir. Bu o deməkdir ki, onlar tematik leksika və bu nitq növü üçün tipik qrammatik hadisələri ehtiva etməlidirlər. Bütün bunlar tələb olunan dil materialının seçilməsinə kömək edir. Digər tərəfdən, mətnlərdə təsadüfi leksika, eləcə də çox az istifadə olunan qrammatik vahidlər ola bilər. Bu mənada belə mətnlərin dərs üçün dil materialı kimi seçilməsi özünü doğrultmur. Bu və ya digər "təsadüfi" leksik vahidlərin mənası lüğətdən, qrammatik formaların mənası isə kontekst çərçivəsində müəyyən edilə bilər.

Yuxarıda deyilənlərdən göründüyü kimi, empirik yanaşmanı tamamilə inkar etmək üçün heç bir səbəb yoxdur. O, təlimin başlanğıc mərhələsini dil materialı ilə yaxşı təmin edir və tematik leksikanın seçilməsinə kömək edir.

Linqvistik yanaşma. Dil materialının linqvistik xüsusiyyətləri metodologiya-ya çoxlu sayda seçim meyarları verir. Bu meyarlardan (və ya prinsiplərdən) ən çox yayılanları bunlardır: söz uyğunluğu; söz polisemiyası; semantik dəyər; üslubi neytrallıq meyarları və s.

Bunların arasında söz uyğunluğu meyarı (prinsipi) müəyyən maraq doğurur. Bu, sözün nitqdə başqa sözlərlə birləşmə qabiliyyətinə aiddir. Üstəlik, söhbət yalnız mürəkkəb sözlərin komponentlərindən deyil, söz birləşməsi kimi lüğəvi vahidlərdən gedir. Söz uyğunluğu meyarı leksik bazanın genişləndirilməsi üçün vacibdir. Bu meyar şagirdlərin öyrəndikləri sözü başqa sözlərlə birlədirşmək qabiliyyətini ehtiva edir.

Söz polisemiyası (çoxmənalılıq) meyarı, ilk növbədə, reallığın bir neçə obyektini ifadə edə bilən dil işarələrinin seçilməsini əhatə edir. Məsələn, bir feilin 10-a qədər mənası var, amma bu o demək deyil ki, bütün mənalar öyrənənlərə çatdırılmalıdır, lakin bu feili bilmək onların leksik bazasını xeyli genişləndirəcək.

Semantik dəyər meyarı tələbələrin mühitindən, doğma ölkəsinin və öyrənilən dilin ölkəsinə aid ən vacib anlayışların seçilməsini nəzərdə tutur.

Üslubi (stilistik) neytrallıq meyarı dialektizmlər, jarqon sözləri, arxaizmləri və ümumiyyətlə, neytral üslubdan kənarda qalan hər sözün istifadəsini istisna edir, baza lüğətdən kənarlaşdırmağın zəruriliyindən bəhs edir.

Yuxarıda qeyd edilən meyarlar söz bazasının genişləndirilməsində müəyyən bir metodik fayda verir, lakin bəzi hallarda ortaya çıxan ziddiyyətlər (söz yaradıcılığında iştirak edə bilməyən, semantik dəyəri olmayan sözlər) həmişə onlardan kifayət qədər səmərəli istifadə etməyə imkan vermir.

Üçüncü yanaşmanı praqmatik (real, işgüzar və s.) adlandırmaq olar. Praqmatik yunan mənşəli termindir, mənası “praktik olmaq” deməkdir. Xarici dil tədrisinin praqmatik aspekti müəyyən bilik, bacarıq və vərdişlərin formalaşması ilə əlaqələndirilir ki, onların məcmusu xarici dildə nitq ünsiyyətini uğurla həyata keçirməyə imkan verir. Praqmatik yanaşma dil elementlərinin linqvistik xüsusiyyətlərindən deyil, xarici dildə ünsiyyət tələblərindən irəli gəlir. Bu tələblər aşağıdakı seçim meyarlarını (prinsiplərini) tələb edir: çoxişləklilik (funksionallıq) meyarı, tematik meyar, sinonimlərin istifadəsinin istisna edilməsi meyarı, şəffaflıq və s. Praqmatik yanaşma üçün nitqdə çoxişləklilik, funksionallıq meyarlı dil materiallarının seçilməsi xarakterikdir. Praqmatika – xarici dildə ünsiyyətin tələblərinə əsaslanaraq dil materialının seçilməsi yanaşmasıdır.

Çoxişləklilik meyarı dil materialının seçilməsinə əsaslanır, burada ən zəruri sözlərin və ya qrammatik quruluşların digərlərindən daha çox olduğu başa düşülür. Çox zaman tezlik (çoxişləklilik) meyarı dil minimumunun seçilməsinə əsaslanır. Həqiqətən, sözlər və qrammatik quruluşlar nitqdə nə qədər çox işlənirsə, görünür, onlar istifadə üçün daha çox gərəkli və zəruridir. Bundan əlavə, çoxişləklilik meyarı şifahi və yazılı mətnlərin statistik işlənməsini əhatə edir, yəni elmi etibarlılıq qazanır.

Tematik meyar, ilk növbədə, təlimin məqsədindən asılı olaraq, dil materialı seçərkən hansı mövzuların müəyyənləşdirilməsinin lazım olduğunu nəzərdə tutur. Tematik meyar tezlik meyarını tamamlayır. Bu meyar, adətən, müəyyən bir mövzuda yüksək tezlikli sözlərin seçilməsi kimi başa düşülür.

Sinonimlərin istisna edilməsi (aradan qaldırılması) meyarı yalnız ən çox istifadə olunan stilistik neytral sözün seçimini müəyyənləşdirir. Başqa sözlə, bu meyar istifadə zamanı bir sıra sinonimlərdən yalnız ən çox yayılmış və üslubi cəhətdən neytral olan sözü lüğətdə saxlamağı təklif edir.

Burada dil materialının seçilməsinə optimal yanaşmanın ancaq üç yolundan bəhs edildi: empirik, linqvistik və praqmatik. Qeyd etmək lazımdır ki, seçim meyarları və ya prinsipləri burada göstəriləndən xeyli çoxdur.

## ƏDƏBİYYAT

1.Əfəndiyeva, T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı / T.Ə.Əfəndiyeva. – Bakı: Elm, – 1980. – 251 s.
2.Firdevs G. Dil öğretim yaklaşimlari ve türkçe öğretimindeki uygulamalar.Mustafa Kemal Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi. Yıl: 2011 ♦ Cilt: 8 ♦ Sayı: 15, s. 123 – 148.
3.Комарова З.И. Методология, метод, методика и технология научных исследований в лингвистике. Учебное пособие. Екатеринбург: Изд-во Уральского федерального университета им. первого Президента России Б.Н. Ельцина, 2012. 818 с.
4.Скалкин В.Л. Щсновы обучения устной иноязычной речи. Изд-во: Русский язык, 1981. 247 с.
**5.** Harwood, N. (ed.) 2010. English Language Teaching Materials: Theory and Practice. Cambridge: Cambridge University Press.
6.Renandya, W. A. (ed.) 2003. Methodology and Materials Design in Language Teaching: Current Perceptions and Practices and their Implications. Singapore: RELC.222 pp.
7.Tomlinson, B. (ed.) 1998. Materials Development in Language Teaching. Cambridge: Cambridge University Press. 445 pp.

**Fil.f.d., dos.Qətibə Balaəhməd qızı Rüstəmova**

**XÜLASƏ**

Bilik çağını yaşayan müasir dünyada ömür boyu öyrənmənin və inkişaf etmənin ən vacib açarı dildir. Oxuma, yazma, anlama, düşünmə, problem həlletmə kimi proseslər dil vasitəsilə həyata keçirilməkdədir. Ünsiyyət qurma, hiss və düşüncələri ifadə etmə, xarici dünya ilə bütünləşmə, mədəni əlaqə yaratma kimi mərhələlərdə dilin əhəmiyyətli yeri vardır. Bu öyrənmə məqsədlərini təmin edən dil

materialının seçilməsi mürəkkəb bir problemdir. Hazırda dil materialının seçilməsinə bu və ya digər yanaşmada istifadə olunan çoxlu sayda meyar və ya prinsiplər mövcuddur. Əsasən, üç yanaşma daha çox diqqət çəkir: empirik, linqvistik və praqmatik. Dil təlimində bu yanaşmalar və meyarlar haqqında aydın təsəvvürə malik olmaq çox vacibdir.

**Кандидат filol. наук, доц. Гатиба Балаахмед кызы Рустамова**

**РЕЗЮМЕ**

В современном мире, переживающем эпоху знаний, наиболее важным ключом к обучению и развитию на протяжении всей жизни является язык. Через язык осуществляются такие процессы, как чтение, письмо, понимание, мышление, решение проблем. Язык занимает важное место на таких этапах, как общение, выражение чувств и мыслей, интеграция с внешним миром, установление культурных связей. Выбор языкового материала, обеспечивающего эти цели обучения, является сложной задачей. В настоящее время существует огромное количество критериев или принципов, используемых в том или ином подходе к выбору языкового материала. По сути, больше внимания уделяется трем подходам: эмпирическому, лингвистическому и прагматическому. При обучении языку очень важно иметь четкое представление об этих подходах и критериях.

**Ph.D.,dos. Gatiba Balaahmed gızı Rustamova**

**SUMMARY**

In the modern world, which is experiencing the age of knowledge, the most important key to lifelong learning and development is language. Processes such as reading, writing, understanding, thinking, problem solving are carried out through language. Language has an important place in stages such as communicating, expressing feelings and thoughts, integrating with the outside world, creating cultural connections. The selection of language material that satisfies these learning objectives is a complex problem. At present, there are a large number of criteria or principles that are used in one or another approach to the selection of language material. Basically, three approaches stand out more: empirical, linguistic, and pragmatic. It is very important to have a clear idea of these approaches and criteria in language training.

**Rəyçi: fil.f.d., dosent Səidə Qafarova**